Aqrar Xidmətlər
Agentliyi

# Kaliforniya Qalxanlı Yastıcası

## (Quadraspidiotus perniciosus) (Comstosk)



088-588
axa.gov.az

## Zərərverici haqqında

Kaliforniya qalxanlı yastıcası bərabərqanadlılar dəstəsi (Homoptera), qalxanlıyastıcalar (Diaspididae) fəsiləsinə aiddir. Yetkin fərd limonu rəngdədir, uzunluğu 1 – 1,5 mm – dir.

Daxili karantin obyektdir. Zərərvericinin birinci yaş sürfələri qalxancıq altında qışayır. Yazda tumurcuqlar açıldıqda qışlamış sürfələr qidalanmağa başlayır.Sürfələr 20 – 25 gün ərzində inkişaf edib 2 dəfə qabıq dəyişir və yetkin hala keçir. İldə 2 – 4 nəsil verir.

## Mübarizə tədbirləri

Qurumuş budaqlar kəsilib bağdan kənara çıxarılmalı və yandırılmalıdır.Yastıca yoluxmuş ağacların gövdə və budaqları metal şotka ilə təmizlənməlidir.

Mütərəqqi aqrotexniki tədbirlər həyata keçirilməlidir.

Erkən yazda “ Qış müalicəsi yağları”, “ABC” və ya “Volk preparatının “İmidakloprid” tərkibli insektisidlərdən (İmidor, İmidal, İmidan,və s.) biri ilə birlikdə çilənmə aparılmalıdır.

Zərərvericinin iqtisadi zərərvermə həddi (İZH): 1 – 2 metr uzunluqda 1 – 3 illik zoğların üzərində 1 ədəd sürfə olduqda Avantaj (2,0 l/ha), Bi – 58 (2,0 l/ha), Marşal (1,5 l/ha), Poliqor (1,0 l/ha), Dursban (2,0 l/ha) və s. preparatlarından istifadə edilməlidi

